AZƏRBAYCAN UŞAQ FONDU
Bakı, Üzeyir Hacıbəyli küç. 40, (Hökümət Evi) / +994 12 493 84 20
office@azuf.az / www.azuf.az

# Azərbaycan Uşaq Fondunun Məxfilik Siyasəti

Azərbaycan Uşaq Fondu (bundan sonra — **Fond**) tərəfindən fərdi məlumatların toplanması, emalı və qorunması prosedurlarını tənzimləmək məqsədilə bu Məxfilik Siyasəti (bundan sonra — **Siyasət**) tərtib edilmişdir.
Fond fərdi məlumat subyektinin Fondun internet səhifəsindən istənilən cihazla istifadə edərkən və Fondla istənilən formada əlaqə saxlayarkən təqdim etdiyi fərdi məlumatları Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Siyasətə uyğun olaraq emal və mühafizə edir.
Fərdi məlumatların subyekti Fondun internet saytından istifadə edərək müvafiq formaları doldurduqda və öz şəxsi məlumatlarını təqdim etdikdə, bu məlumatların emalına birbaşa razılığını vermiş hesab olunur.

---

**1. Əsas anlayışlar**

- **Fərdi məlumatlar** — şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumat;
- **Fərdi məlumatların subyekti (subyekt)** — barəsində fərdi məlumatlar toplanılan, işlənilən və mühafizə edilən fiziki şəxs;
- **Fərdi məlumatların toplanılması** — subyekt barəsində fərdi məlumatların sənədləşdirilmiş qaydada qanuna uyğun olaraq əldə edilməsi;
- **Fərdi məlumatların işlənilməsi** — fərdi məlumatlar üzərində aparılan əməliyyatlar (yazılma, sistemləşdirmə, təzələnmə, dəyişdirilmə, saxlanma, ötürülmə və məhv edilmə).

---

**2. Şəxsi məlumatların siyahısı**
Fond vebsayt istifadəçilərinin aşağıdakı fərdi məlumatlarını emal edir:

- **Təqdim olunan məlumatlar:** Saytda müvafiq formalar doldurularkən (əlaqə forması, tədbirlərə qeydiyyat, görüşə yazılma və s.) təqdim edilən məlumatlar;
- **Mesaj məlumatları:** Fonda göndərilən elektron poçt və digər müraciətlərdə subyekt tərəfindən göstərilən fərdi məlumatlar;
- **Texniki məlumatlar:** İstifadə olunan cihaz tərəfindən avtomatik ötürülən məlumatlar (İP ünvanı, kukilər (cookies), brauzer haqqında məlumatlar, giriş tarixi və vaxtı, səhifə ünvanları).

---

**3. Fərdi məlumatların emalının məqsədləri**
Fond fərdi məlumatları yalnız aşağıdakı məqsədlər üçün emal edir:

- Subyektin saytda qeydiyyatını və müvafiq bölmələrə girişini təmin etmək;
- Fonda müraciət edərkən subyektlə əlaqə saxlamaq və suallarını cavablandırmaq;
- Fondun fəaliyyəti və keçirilən tədbirlər haqqında məlumatlandırma;
- Fondun keçirdiyi tədbirlərdə iştirakçı qismində qeydiyyata alınma;
- **Fondun hesabına ianə edilməsi prosesini təmin etmək.**

Fond subyektin razılığı olmadan şəxsi məlumatları üçüncü şəxslərə ötürmür və onları ictimai mənbələrdə yerləşdirmir.

---

**4. Fərdi məlumat subyektlərinin hüquqları**

Subyekt aşağıdakı hüquqlara malikdir:

- Fərdi məlumatlarının emalı barədə Fonddan məlumat almaq;
- Köhnəlmiş, qeyri-dəqiq və ya qeyri-qanuni yolla əldə edilmiş məlumatların dəqiqləşdirilməsini, bloklanmasını və ya məhv edilməsini tələb etmək;
- Fərdi məlumatların emalına verdiyi razılığı istənilən vaxt geri götürmək;
- Fondun hərəkətlərindən (hərəkətsizliyindən) müvafiq səlahiyyətli orqana və ya məhkəməyə şikayət etmək.

---

**5. Şəxsi məlumatların təhlükəsizliyi**

Fond fərdi məlumatların icazəsiz daxilolma, məhv edilmə, dəyişdirilmə və bloklanma kimi qanunsuz hərəkətlərdən qorunması üçün bütün zəruri hüquqi, təşkilati və texniki tədbirləri görür. Fondun fərdi məlumatların emalına buraxılmış əməkdaşları konfidensiallıq rejimini saxlamağa borcludurlar.

---

**6. Üçüncü tərəf saytlarına keçidlər**

Fondun internet saytında üçüncü tərəflərin saytlarına keçidlər ola bilər. Fond həmin xarici resursların məzmununa və ya onların tərəfindən təqdim olunan məlumatların məxfiliyinə görə məsuliyyət daşımır.

---

**7. Siyasətdə dəyişikliklər**

Fondun bu Siyasəti istənilən vaxt yeniləmək hüququ vardır. Siyasətdə dəyişiklik edildikdə, Fond bu barədə internet saytında müvafiq bildiriş yerləşdirir. Bildirişdən sonra saytdan istifadənin davam etdirilməsi dəyişikliklərlə razılaşma kimi qəbul olunur.

---

**8. Yekun müddəalar**

Bu Siyasətlə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həll edilir. Siyasətin hər hansı müddəası etibarsız sayılarsa, bu, digər müddəaların hüquqi qüvvəsinə təsir etmir.